MƏKTƏBDƏ Kaspi 14 MAY ŞƏNBƏ 2022 9

## AMEA-NIN MÜXBİR ÜZVÜ RAFİQ ƏLİYEV "MƏKTƏBDƏ" UŞAQLARIN SUALLARINI CAVABLANDIRIR









TƏHSİL
SÖHBƏTLƏŞDİ:
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# "MƏNİM ÜMİDİM GƏNCLƏRƏDİR..."

"Bir az tarixə ekskursiya edin: görəcəksiniz ki, bəşəriyyəti ziqzaqlardan həmişə elm adamları çıxarıb. Ədəbiyyat da, musiqi də, incəsənət də gözəl şeydir. Ancaq fikir verin, pandemiya oldu. Bütün bəşəriyyət "nə vaxt vaksin hazırlayacaqlar?" deyə gözlədi. Mən də dedim ki, Messini, Ronaldonu çağırın, onlara milyardlar verirsiniz, gəlib bəşəriyyəti xilas eləsinlər".

Bakı Şəhər Təhsil İdarəsi tərəfindən reallaşdırılan və "Kaspi" qəzeti və Kaspi.az saytının informasiya dəstəyi ilə həyata keçirilən "Məktəbdə" layihəsinin ilk qonağı texnika elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, "Zadə irsi və süni intellekt" Assosiasiyasının rəhbəri Rafiq Əliyev oldu.

Dünyanın müxtəlif dillərində çap olunan 76 kitabın müəllifi, 200-dən çox fəlsəfə doktoru və elmlər doktoru yetişdirən, tələbələrinin sorağı dünyanın dörd bir yanından eşidilən alimin "Məktəbdə"ki görüşü səmimi və yaddaqalan dialoq idi. 18 saylı məktəbin görüş məkanı akademikin mühazirə oxuduğu Amerika və ya digər ölkələrin nüfuzlu universitetlərinin geniş zallarına bənzəmirdi. Bu auditoriyada o yeniyetmə şagirdlərin maraq dolu baxışları ilə üz-üzə idi. Onların elm, təhsil, həyatla bağlı suallarını cavablandırırdı. Alim kimi tövsiyələrini, ağsaqqal kimi öyüdlərini verirdi. "Məktəbdə" baş tutan görüş müstəqil həyatın astanasında olan şagirdlər üçün unudulmaz dərs oldu...

### MƏNƏ BABA KİMİ, DOST KİMİ YANAŞIN

"Xahiş edirəm, heç kim ayağa qalxmasın"- deyə məktəbin zalına daxil olanda dediyi sözlərin fəlsəfəsini özü izah etdi: "Təxminən 60-65 ildir ki, auditoriyaya girirəm. Bu illər ərzində içəri daxil olanda tələbələri ayağa durmağa qoymamışam. Hətta bununla bağlı "Rafiq müəllim düz deyir, yoxsa yox?"- deyə sosial şəbəkələrdə müzakirələr də getdi. Bir xeyli insan "Düz demir, bu, Azərbaycanın adət-ənənəsidir, böyüyə hörmətdir"- deyə etiraz etdi. Mən istədim ki, tələbələrimin içində bir azadlıq olsun, sərbəst olsunlar. Mənim ümidim həmişə gənclərədir. Mən bu uşaqlar arasında lütfizadələr də görürəm. Özünüzə inam olsun. Bu millət, bu xalq çox istedadlıdır. Xüsusən, fərdləri çox istedadlıdır. İnşallah, bir gün "xor" oxuya biləcəyik. Dahi Üzeyir bəyin 1946-cı ildə "Azərbaycan musiqi nəzəriyyəsi" adlı kitabı Azərbaycan və rus dilində işıq üzü gördü. Əsərdə qeyd edilir ki, Azərbaycan musiqisində çoxsəslilik yoxdur. Yəni xor yoxdur. Xor kilsədən gəlir. Mən din adamı deyiləm, dini ayinləri də icra etmirəm, amma imanım dinimdən yüksəkdir. Allahı həmişə başımın üstündə görürəm. Bizdə futbol yoxdur, amma güləş var, yəni fərdilik var. Bu millətin fərdi istedadı çoxdur. Allahdan arzum budur ki, elə inkişaf edək ki, yaxşı xor oxuya bilək".

### "BİZ" VƏ "MƏN"

"Fərdlərin istedadı əvvəllər də olub. Bəs toplu inkişaf nə zaman olacaq?"- deyə şagirdlərdən birinin sualı alimi xeyli düşündürdü: "Bu, sizdən asılıdır. Allah eləsin, sizin içərinizdəki "mən" "biz"dən bir az aşağı olsun. Niyə futbolda komanda şəklində oynaya bilmirik? "Mən vurum" istəyi mane olur. Amma topu ötürsəydi, başqası vurardı. İçərimizdəki izafi "mən" qoymur. Nə zaman ki "biz" içimizdəki "mən"dən bir az yuxarı olacaq, onda xor oxuyacağıq. Onda futbolumuz da olacaq, elmimiz də inkişaf edəcək, yüksək təhsilimiz də olacaq. Dünyada monoton həyat yoxdur. Müəllimim Zadənin bir sözü var: həyat gül-çiçək içərisində qoyulmuş çarpayıda keçən ömür deyil. Onun gözləmədiyin dolanbacları var. İndi mənim 16 yaşım olsaydı, daha dərin təhsil haqqında düşünərdim. O vaxt ingilis dilim yaxşı olsaydı, bugünkündən də çox qazanardım. Az-çox danışa bilirdim, amma ingilis dili mühitimiz yox idi. Çox dil bilmək yaxşı şeydir, amma bu gün bütün dünyada təhsilin və elmin dili ingilis dilidir. Əgər gələcəyinizin uğurlu olmasını istəyirsinizsə, ingilis dilinə fikir verin".

### ŞÜURLARDA İNQİLAB LAZIMDIR

"Elmimiz niyə inkişaf etmir?"- deyə şagirdlər maraqlandılar: "Həyat elə gətirib ki, çevrəm, dostlarım, əsasən yazıçılar, bəstəkarlar, şairlər, elm adamlarıdır. Ən yaxın dostlarım Anar, Ramiz Həsənoğlu, Ramiz Rövşən, Cavanşir Quliyevdir. Bir az tarixə ekskursiya edin: görəcəksiniz ki, bəşəriyyəti ziqzaqlardan həmişə elm adamları çıxarıb. Ədəbiyyat da, musiqi də, incəsənət də gözəl şeydir. Ancaq fikir verin, pandemiya oldu. Bütün bəşəriyyət "nə vaxt vaksin hazırlayacaqlar?" deyə gözlədi. Mən də dedim ki, Messini, Ronaldonu çağırın, onlara milyardlar verirsiniz, gəlib bəşəriyyəti xilas eləsinlər. Bu gün, şükür, maska taxmırıq. Bunu kim elədi? Elm! Ona görə də birinci tövsiyəm yüksək təhsillə bağlıdır. Elmin kökü təhsildir. Təhsil varsa, elm olacaq. Təhsilin keyfiyyəti yüksəlməlidir. Bu, təkcə məktəb rəhbərliyindən və ya məktəbin təmirli binasından asılı deyil. Fərdin özünün istəyindən və motivasiyasından asılıdır. Elm isə bu və ya digər ölkəni həmişə ağ günə çıxarar. Mənim müəllimim, dostum, həm də dünyanın böyük dostu Lütfizadəni tanımayan yoxdur. Bir dəfə azərbaycanlı jurnalist ondan "Azərbaycanın gələcəyini necə görürsünüz?"- deyə soruşdu. Böyük alim dedi ki, Cənubi Koreyaya baxın. 30-40 il bundan qabaq cəmi 3 milyard büdcəsi vardı. Son dərəcə kasıb bir dövlət idi. Bu gün isə dünyanın iqtisadi inkişaf nöqteyi-nəzərindən inkişaf etmiş ölkəsidir. Nefti, qızılı, kömürü yoxdur. Beyni var. Təkcə "Samsung" firmasının elmə ayırdığı pul Yaponiya və Çin istisna olmaqla bütün Şərq ölkələrinin bu sahəyə ayırdığı puldan çoxdur. Orda top universitetlər də var. Düzdür, təhsilin və elmin Məkkəsi Amerikadır. Yüz top universitet götürsəniz onların 80-85-i Amerikadadır. Orda işləyən və yaşayan bir insan kimi deyə bilərəm ki, Amerika elminin böyük bir hissəsi İran, Azərbaycan, Hindistandan gələn alimlərin çiyinlərindədir. Dünyada həmişə bəşəriyyəti çətin vəziyyətdən elm çıxarıb. Azərbaycanda elm inkişaf edəcəksə, adambaşına düşən ÜDM də fərqli olacaq, həyat səviyyəsi də yüksələcək, ölkənin nüfuzu qalxacaq. O ölkədə ki, elmə 0.2 faizdən aşağı ayırmalar var, elm ölkənin iqtisadiyyatına təsir eləməz. Biz 2005-ci ildə Boloniya sisteminə keçdik. Bu sistemdəki proqramlar dünyanın inkişafına uyğundur. Qoy məndən inciməsinlər, amma bizim təhsildə bu sistemə keçə bilmədilər. Çünki şüurlarda inqilab olmadı. Yəni dəyişə bilmirik. Avropada isə dünyanın inkişaf bazarının arxasınca gedə bilirlər. Məsələn, bu gün Azərbaycanda neçə nəfər 4-cü Sənaye inqilabı haqqında bilir? Ancaq onlar 5 ildir ki, bu dərsi keçir və ixtisası hazırlayırlar. Cəfər Cabbarlının "Firuzə" hekayəsini oxumusuzmu? Şüurlarda inqilab lazımdır. Şüur dəyişməsə, heç nə dəyişən deyil".

> *"Heç zaman ruhdan düşməyin, daim inamlı olun. İstedadın qarşısını heç nə ala bilməz. Bu elə bir mənbədir ki, öz-özünə axıb gedəcək. Ona görə qəti bədgüman olmayın. Həyatda elə bir insan yoxdur ki, səhv eləməsin. Amma yadınızda qalsın: iki şeydə səhv etmək olmaz - bir ailə quranda, bir də sənət seçəndə".*

### "90-CI İLLƏRDƏN SONRA ALİMLƏRİN ADINI SAYA BİLMİRƏM"

Şagirdlərdən birinin "Sizin gənclik illərinizdəki şagirdlərlə bugünkü dövrün şagirdlərinin fərqi nədir? Hansılar daha istedadlıdırlar?" sualına alimin cavabı belə oldu: "İstedad Allahın verdiyidir. Bu gün internet həm elmdə, həm təhsildə, həm insanların həyatında inqilab yaratdı. Bu gün dünya sənin ovcundadır. O zaman elektron qəzetlər, saytlar yox idi. Hətta kompüterə əl vurmağa ehtiyat edirdilər. Bəyəm bizim vaxtımızda "Nyu-York Times"a çıxıb oxumaq olurdu? Bu gün asanlıqla oxuya bilərsiniz. İstənilən kitabxananın giriş kodunu qırıb oxuya bilərsiniz. Proqram təminatlarından pulsuz istifadə edirsiniz. O zaman dünya uzaq idi, amma fərdi inkişaf çox idi. Bu gün bilmirəm ki, həmin internet resurslarının neçə faizini təhsilə, elmə və ya oyunlara sərf edirlər. Azərbaycanda 90-cı illərdə Zahid Xəlilov, Yusif Məmmədəliyev, Kərim Kərimov, Lütfizadə, Xudu Məmmədov, İbrahim İbrahimov və b. kimi görkəmli alimlər olub. Amma 90-cı illərdən sonra alimlərin adını saya bilmirəm. İnternet çıxandan bəri saya bilmirəm. O saydıqlarımın hamısı kənddə anadan olublar. Lampa işığında oxuyublar. Amma o vaxt bir həvəs vardı, motivasiya daha çox idi. Elm və təhsilin inkişafı üçün sosial sifariş olmalıdır. Xudu Məmmədov deyirdi ki, siz zəif tələbələrdən yapışın, çünki onlar sabah gəlib sizin müdiriniz olacaq. İndi görürsən ki, Xudu müəllim düz deyirmiş. O vaxt isə təhsilli, elmli adamlara sifariş daha çox idi".

### "ÇƏTİNLİKLƏR MƏNƏ HƏMİŞƏ MOTİVASİYA VERİB"

Akademik uşaqlığında ona motivasiya verən, elm yoluna yönəldən xatirələrindən də danışdı: "Mən kənddə doğulmuşam. Ağdamın Novruzlu kəndində. 5 yaşına qədər orda yaşamışam. Atam zavod direktoru idi. Kənddə ipəkqurdu saxlayırdıq. Onu gətirib təhvil verir, əvəzində kitab alırdıq. Və yaxud Moskvada aspiranturada oxuyanda cəmi bir alma ala bilirdik. Bu çətinlikləri görmüşük. Amma o çətinliklər mənə həmişə motivasiya verib. Çətinlik olmayan yerdə böyük uğurlar qazanmaq olmaz. Bu, katarsis kimidir. Bir fərd və ya millət də o katarsisdən keçmirsə, nə böyük millət, nə də böyük şəxsiyyət ola bilər".



Fotolar: Tapdıq Abdullayev/ Global Media Group

## ƏN BÖYÜK hisslərim – itkilərim

"Ağdam artıq işğaldan azad olunub. Hisslərinizi bilmək maraqlıdır..." Sual Rafiq Əliyevi xeyli kövrəltdi. "Mən hələ Ağdama getməmişəm" dedi: "Bir neçə dəfə təkliflər olub. 20-25 nəfərin siyahısını yazıb göndərdik. TV-lərdən də gələn təkliflərə hələ "yox" deyirəm. "Nə vaxt mənim atamın məzarının üstü açılar, onda Ağdama gedərəm" deyə bildimişəm. Gedib Ağdamda şəkil çəkdirim, TV kadrlarna düşüm - bu, mənlik deyil.

O vaxt ürəkdən gələn şeirlərim, pyeslərim, poemalarımın hamısı Qarabağda itib-getdi. Kəndimizin bir tərəfində Xudu Məmmədov olurdu, o biri tərəfində dramaturq Əli Əmirli. Hər ikisi xalamoğludur.

Ən böyük hisslərim itkilərimlə əlaqədardır. İtkilərim çox olub.

R.Əliyev gənclərin "xaricdə oxumaq-yaşamaq yaxşıdır, yoxsa ölkəyə qayıtmaq" sualına da münasibət bildirdi: "Xaricdə oxuyub, qayıdıb ölkəyə xidmət etmək lazımdır. Mən Almaniya universitetlərinə və ya Corciya Universitetinə çoxlu tələbələr göndərmişəm. Onların 10-15 faizi qayıdıb. Amma digərləri də qayıdacaqlar. Amma "Nə vaxt?" sualına cavab verə bilmirəm. Bu, qeyri-səlisdir. Müdafiə edən tələbələrimin içərisində cəmi 1-2 nəfər ağdamlı var. Nə fərqi var, millət olmalıdır. Amerikada belə yanaşmalar yoxdur. Amerikanın Kaliforniya ştatının büdcəsi Rusiyanın büdcəsindən çoxdur. Amerika heç nə istehsal eləmir, cəmi iki şeyi – "Boeing"i və bəzi hərbi silahları özündə saxlayıb. Qalan malları Çindən və başqa ölkələrdən alır"

### "MENTALIM QƏRB, ƏXLAQIM ŞƏRQ ƏXLAQIDIR"

Akademik "Özümüzü necə motivasiya edək, ruhdan düşməyək?" - deyə soruşan şagirdlərə də tövsiyəsini əsirgəmədi: "Heç zaman ruhdan düşməyin, daim inamlı olun. İstedadın qarşısını heç nə ala bilməz. Bu elə bir mənbədir ki, öz-özünə axıb gedəcək. Ona görə qəti bədgüman olmayın. Həyatda elə bir insan yoxdur ki, səhv eləməsin. Amma yadınızda qalsın: iki şeydə səhv etmək olmaz - bir ailə quranda, bir də sənət seçəndə. Sonradan bunların fəsadları çox olar. Sevginin gözü kor olur. Çox şeyi görmək olmur. Son qərar özünüzündür. Amma böyük məsləhəti də çox vacibdir. Amerikada həyat yoldaşını seçmə -"Wife selection" proqramı tədris olunur. Orda kriteriyalar din uyğunluğu, xarici gözəllik, mətbəx bacarığı, qaynana ilə yola getmək və sairdir. Bunlar harmoniya saxlamaq üçün çox vacibdir. Mən yazılarımda da yazmışam: mənim mentalım Qərb, əxlaqım Şərq əxlaqıdır. Mənim heç bir ölçüyə sığmayan, mənasız qısqanclığım var. Bunu tərgidə bilmirəm. Bu, Şərqdən gələn bir şeydir. İndi biz qərbdən surət götürürük, məzmun götürmürük".

### "MƏNİM ƏSAS DOSTLARIM GƏNCLƏRDİR "

Akademik "Məktəbdə"n çox şey qazandığını etiraf etdi: "Sizinlə görüşməyə çox şadam. Mənim əsas dostlarım gənclərdir. Çünki onlara sabah kimi, ümid kimi baxıram".